

## Xəyalə SEVİL

**SAĞ ÇIXA BİLMƏDİK...**

Yox! Səni də qınamıram,
Yox! Məni də qınama.
Alnımıza yazılanın
Günahkarı biz deyilik.
Bir sən varsan bu dünyada,
Bir mən varam,
Amma ikimiz deyilik.

Göyə qaldırdığım xəyallar daha
Gözümün altında uçuq qalacaq.
Eh! Qapım üzünə bağlı olsa da,
Pəncərəm həmişə açıq qalacaq.

Üzü qara olsun bu ayrılığın,
Ağ  çıxa bilmədik.
Bircə onu bilirəm ki,
Bədənimizin sol tərəfindən
Sağ çıxa bilmədik.

**SƏNƏ DEMİŞDİM AXI**

Sənə demişdim axı,
Demişdim: “Çatmaz gücün,
Bir külqabı siqaret
Yıxılar dodağından
Məni unutmaq üçün”.

Əllərin deyirəm,
Bomboş əllərin.
Yıxılar çiynindən
Sərxoş əllərin.
Ağlayarsan,
Yanaqların bar verər.
Xatirələr gülümsəyər şəklimdən,
Həsrətin nübar verər.

Sənə demişdim axı,
Deməmişdim...
Gülmə, halıma gülmə.
Mən unuda bilmirəm,
Sən də unuda bilmə.

**CƏZALIDI ÜRƏYİM**

Cəzalıdı ürəyim,
Bədənimdə küncə qoydum.
Yorulan göz yaşımı
Yanağımda dincə qoydum.

Bu da səndən qalan ömür,
Yarı sənsən, yarı sudu.
Həsrətini atdığım yer
Gözlərimin quyusudu.

Eh! Yolların yol yoldaşı,
Gedən yollara qarışdın.
Sən tək bədəndən ibarət
Sevgilərə alışdın...

**HƏRƏ BİR YERDƏN TUTUR YAŞAMAQ ÜÇÜN**

Hərə bir yerdən tutur yaşamaq üçün –
Mən də bir az oğlumdan,
Bir az da qızımdan tutdum...

Yanağımın nəm tərəfindən keçdi
Bütün gedənlər.
Bəlkə, elə ona görə “soyuqladılar”,
Soyudular belə...

Sonra hisslərimə azadlıq vermədim,
Bütün duyğularımı
Ürəyimin çərçivəsində kiçiltdim...

Ömrümün qum saatından
Kimlər boşalmadı ki.
Və dönüb Tanrıya baxdım:
“İlahi, olmadı ki!”

**QOCALIQ**

Beli bükülmüşdü.
İndi dünyadan çox
Torpağa baxırdı qarı.
Əlində əsası,
Əsə-əsə gəzirdi,
Birdən torpağın
Xətrinə dəyər deyə.
Gözləri bir cüt yas yeri,
Kirpikləri qara lent kimi.
Bir gözündə cavanlığı ölmüşdü,
O birində ümidləri.
Ağ saçlarını
Ağ bayraq kimi qaldırmışdı başına,
Təslim olmuşdu qocalığa...

**PAYIZ**

Üşüyər, üşüdər pəncərəmi də,
Gəlməz içəriyə, yadındı payız.
Sarı saçlarını töküb çiyninə,
İlahi, nə gözəl qadındı payız.

Həmişə gözündə yaş saxlayanım,
Sənə oxşayıram, gözüm bir əsim.
Çağır, çağır, gəlim, buludun olum,
Mənə göylərində yer ver, tələsim.

Üzünü, gözünü yuyum yolların,
Üstünün – başının tozunu alım.
Geriyə qaytara bilmədim onu,
Barı ayağının izini alım.

**ÖLÜMÜN NÜBAR VAXTIDI**

Bu uzun gecənin qaranlığında
Canıma vəlvələ düşüb.
Bir kəndir özünü asıb tavandan,
Məndən əvvələ düşüb.

Gecədən bir az keçir,
Saat səhərə yaxın.
Nə intihar vaxtıdı...
Ruhum üzü göylərədi,
Ölümün nübar vaxtıdı.

Yoxdu burdan o tərəfi,
Nə günəş, nə də ki, ay olasıdı.
Bir cüt qərənfilə dönüb əllərim
Sinəmin üstünə qoyulasıdı.